**1 «E» kurs. Azərbaycan dili.**

**Mövzu: Felin formaları-ardı.**

**3. Felin arzu forması** işin, hərəkətin arzu olunduğunu bildirir. Felin əvvəlinə "gərək", "kaş" sözlərini artırmaqla,sonuna -a,-ə şəkilçisini və şəxs sonluğunu artırmaqla düzəlir.

| | tək | cəm |
|---|---|---|
| I şəxs | mən gərək gələm | biz gərək gələk |
| II şəxs | sən gərək gələsən | siz gərək gələsiniz |
| III şəxs | o gərək gəlsin | onlar gərək gəlsinlər. |

3-cü şəxsdə -a,-ə şəkilçisi işlənmir, "gərək" sözü kifayət edir.

**4.Felin lazım forması** işin, hərəkətin lazımlı olduğunu bildirir.Felin kökünə -ası,-əsi şəkilçisini və şəxs şəkilçisini artırmaqla düzəlir.Məs:

| | tək | cəm |
|---|---|---|
| I şəxs | mən gələsiyəm | biz gələsiyik |
| IIşəxs | sən gələsisən | siz gələsisiniz |
| III şəxs | o gələsidir | onlar gələsidirlər |

Bu formanın inkarı "deyil" sözü ilə əmələ gəlir, şəxs şəkilçiləri də "deyil" sözünə əlavə olunur. Məs: Mən gələsi deyiləm, sən gələsi deyilsən, o gələsi deyil, biz gələsi deyilik, siz gələsi deyilsiniz, onlar gələsi deyillər.

**5.Felin vacib forması** işin, hərəkətin vacib olduğunu bildirir, felin kökünə -malı,-məli şəkilçisini və şəxs sonluğunu artırmaqla düzəlir. Məs:

| | tək | cəm |
|---|---|---|
| I şəxs | mən gəlməliyəm | biz gəlməliyik |
| II şəxs | sən gəlməlisən | siz gəlməlisiniz |
| III şəxs | o gəlməlidir | onlar gəlməlidirlər. |

Bu formanın inkarını düzəltmək üçün də"deyil" sözünü işlədirik. Məs: mən gəlməli deyiləm, sən gəlməli deyilsən, o gəlməli deyil...

**6. felin şərt forması** işin, hərəkətin icrasının şərtini bildirir, felin kökünə -sa,-sə şəkilçisini və şəxs sonluğunu artırmaqla düzəlir. Məs:

| | tək | cəm |
|---|---|---|
| I şəxs | mən gəlsəm | biz gəlsək |
| II şəxs | sən gəlsən | siz gəlsəniz |
| III şəxs | o gəlsə | onlar gəlsələr |

Bu formanın inkarı yoxdur.

**Çalışma.** Bir fel götürün və onu keçdiyimiz formalarda şəxslərə görə dəyişin.